Azərbaycan.- 2021.- 30 mart. S. 10.

# Gəncə Dövlət Universitetində Vətən müharibəsinə həsr olunmuş onlayn konfrans

Gəncə Dövlət Universitetində "44 günlük müharibədə tarix yazan Azərbaycan" adlı onlayn konfrans keçirilmişdir.



Konfransı giriş sözü ilə universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva açaraq diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olarkən növbəti dəfə çox önəmli mesajlar verdi. Uğursuz dövlət olan Ermənistanda üzdəniraq qüvvələrin Azərbaycandan əvəzçıxma çağırışlarının səsləndirildiyi bir vaxtda bu səfər hər bir Azərbaycan vətəndaşında qürur hissi oyatdı.

Milli Məclisin deputatı, universitetin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə məruzə ilə çıxış edərək qeyd etmişdir ki, rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsini şanlı Qələbə ilə başa çatdırdı. Böyük qələbədən qısa müddət keçməsinə baxmayaraq, işğaldan azad olunmuş ərazilərimizin bərpasına, bir sıra infrastruktur layihələrinin reallaşdırılmasına başlanılıb. İşğaldan azad olunmuş ərazilərə mütəmadi səfər edən dövlət başçısı ermənilərin vəhşiliyinə məruz qalmış şəhər və kəndlərimizin bərpası istiqamətində tapşırıqlarını verir, önəmli layihələrin təməlini qoyur".

P.Kərimzadə daha sonra bildirmişdir ki, Vətən müharibəsində ordumuz ermənilərdən fərqli olaraq mülki əhaliyə qarşı savaş aparmadı. Dövlət başçısı Hadrut əməliyyatının dünyanın hərb elmində xüsusi yer tutacağını dedi və bildirdi ki, bütövlükdə 44 günlük müharibədə qazandığımız zəfər bu gün dünyanın aparıcı hərbi ali məktəblərində öyrənilir.

Konfransda çıxış edən universitetin azad həmkarlar ittifaqı komitəsinin sədri Afaq Qasımova isə vurğuladı ki, bu gün Azərbaycanın qarşısında duran ən vacib məsələ işğaldan azad olunan torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsi, həmin ərazilərin də digər regionlarımız kimi çiçəklənməsidir: "Əminik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət və Azərbaycan xalqının birliyi, həmrəyliyi nəticəsində tezliklə qarşıya qoyulan bu hədəflər də qət ediləcək. Çünki Azərbaycan Prezidentinin dediyi kimi, "Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***